

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 18 yanvar 2023-cü il №4 (2716) https://mod.gov.az Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfər edib



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın dəvəti ilə yanvarın 15-də Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfər edib.*

Əbu-Dabi Prezident Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Prezident İlham Əliyevi Birləşmiş Ərəb Əmirliklərinin ədliyyə naziri Abdulla bin Avad Əl-Nueymi və digər rəsmi şəxslər qarşılayıblar.

* * *

Yanvarın 15-də Əbu-Dabidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə görüşü olub.

Dövlətimizin başçısı səfərə dəvətə görə minnətdarlığını bildirib, BMT Təhlükəsizlik Şurasında Cənubi Qafqaz regionuna aid müzakirələrdə Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycana göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini, bunun dostluğun və qardaşlığın nümunəsi olduğunu deyib.

Prezidentlər Azərbaycanın və Birləşmiş Ərəb Əmirliklərinin sülhsevər dövlətlər olduqlarını qeyd ediblər, regionda sülhün, sabitliyin və təhlükəsizliyin təmin edilməsi işində göstərdikləri səyləri vurğulayıblar.

Söhbət zamanı Azərbaycan ilə Birləşmiş Ərəb Əmirliklərinin siyasi, iqtisadi, təhlükəsizlik və digər sahələrdə sıx əməkdaşlıq həyata keçirdikləri bildirilib, bu əlaqələrin daha da genişləndirilməsinin vacibliyi vurğulanıb. Dövlət başçıları tərəfindən müəyyənləşdirilmiş siyasi xəttə uyğun olaraq, iki ölkənin müxtəlif səviyyələrdə nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin önəmi qeyd edilib.

Dövlətimizin başçısı Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın rəhbərliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin mühüm uğurlara imza atdığını, ciddi texnoloji nailiyyətlər əldə etdiyini deyib, bu münasibətlə təbriklərini çatdırıb.

Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyan öz növbəsində Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı nailiyyətlər və qələbələr münasibətilə təbriklərini çatdırıb.

Dövlətimizin başçısı Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyanı Azərbaycana səfərə dəvət edib.

Dəvət minnətdarlıqla qəbul olunub.

* * *

Yanvarın 16-da Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Birləşmiş Ərəb Əmirliklərinin sənaye və yüksək texnologiya naziri Sultan bin Əhməd əl-Cabir tədbirdə çıxış edərək ölkəsinin dayanıqlılıq sahəsində siyasətindən və bu istiqamətdə həyata keçirilən layihələrdən danışıb.

Sonra dövlətimizin başçısı açılış mərasimində çıxış edib.

### Prezident İlham Əliyevin çıxışı

- Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Zati-aliləri Şeyx Məhəmməd bin Zayed Al Nəhyan.

Dövlət və hökumət başçıları.

Xanımlar və cənablar.

Əvvəlcə, bu mühüm toplantıda iştirak etmək üçün məni dəvət etdiyinə görə Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə təşəkkürümü bildirmək istəyirəm. Bu auditoriya qarşısında çıxış etməkdən böyük şərəf hissi duyuram. Dünən bizim cənab Prezidentlə əla görüşümüz oldu. Bu, Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında münasibətlərin bir çox sahədə strateji əhəmiyyətini bir daha təsdiqlədi. Bu fürsətdən istifadə edərək, bizi qəbul edən bütün tərəflərə minnətdarlığımı bildirirəm.

Mən çox böyük nailiyyətlər və sürətli inkişaf münasibətilə Birləşmiş Ərəb Əmirliklərinin Prezidentini və xalqını təbrik etmək istəyirəm. Cənab Prezident, Sizin rəhbərliyinizlə Birləşmiş Ərəb Əmirlikləri dünyanın ən sabit, inkişaf etmiş və uğurlu ölkələrindən birinə çevrilib. Biz - Sizin Azərbaycandakı qardaşlarınız olaraq, gördüyünüz işlərdən çox fərəhlənirik.

Biz Azərbaycanda bərpaolunan enerji mənbələrini öz enerji təhlükəsizliyimizin təmin olunması üçün inkişaf etdirmirik. Enerji təhlükəsizliyimizi hələ bir neçə il əvvəl təmin etmişik. Bu gün Azərbaycan nəinki öz enerji tələbatlarını təmin edir, o cümlədən xam nefti, neft məhsullarını, təbii qazı, neft-kimya məhsullarını və elektrik enerjisini ixrac edir. Bərpaolunan enerji ilə bağlı proqramımız tamamilə fərqli gündəliyə malikdir. Birincisi, bu onunla bağlıdır ki, nəhəng potensial var. İkincisi, biz onun sayəsində ixracımızı şaxələndirəcəyik. Əlbəttə ki, nəticədə iqtisadiyyatımızın yeni ekoloji təmiz sektoru yaranacaq.

Cəmi iki il əvvəl Azərbaycan Cənub Qaz Dəhlizi meqa enerji layihəsini öz tərəfdaşları ilə başa çatdırıb, Azərbaycandan Cənubi Avropaya gedən inteqrasiya edilmiş boru kəmərləri sistemini qurub. Həmin boru kəmərinin uzunluğu 3500 kilometrdir.

Təbii qaz ixracımız artır - ötən il 19 milyard kubmetr idisə, bu il 24 milyard kubmetrə çatacaq. O, artmaqda davam edəcək. Buna görə mən bir daha söyləmək istərdim ki, Azərbaycanın bərpaolunan enerji mərkəzlərindən birinə çevrilməsi planlarımız Azərbaycanın öz enerji təhlükəsizliyi ilə bağlı deyil, belə ki, biz həmin işləri artıq söylədiyim başqa səbəblərə görə aparırıq.

Potensialımıza gəldikdə, bəzi rəqəmləri diqqətinizə çatdırım. Quruda 27 qiqavatlıq külək və günəş enerjisi, 2020-ci ildə Vətən müharibəsi zamanı azad edilmiş ərazilərdə 10 qiqavatlıq külək və günəş enerjisi, həmçinin Xəzər dənizinin Azərbaycan sektorunda 157 qiqavatlıq külək enerjisi imkanları mövcuddur. Yəni, 200 qiqavata yaxın potensial var. Əlbəttə ki, bizə kifayət qədər ixrac marşrutları lazımdır. Təbii ki, biz bütün bu layihələri mərhələli şəkildə icra edirik.

(Ardı 2-ci səhifədə)



Döyüşlərə qələbə ruhu ilə gedirdik

4-cü səhifədə



20 Yanvar - müstəqillik tariximizin şərəf səhifəsi

5-ci səhifədə



Etibar Vətənə etibarlı əsgər idi

7-ci səhifədə



Əsgərlərimizin bilikləri hərtərəfli inkişaf etdirilir

8-ci səhifədə

# Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfər edib






(Əvvəli 1-ci səhifədə)

Dünən "Masdar" və Azərbaycan Dövlət Neft Şirkəti 4 qiqavatlıq külək və günəş enerjisi stansiyalarının yaradılmasına dair razılaşma imzaladılar. Bu, hələ qisamüddətli bir layihədir. Ortamüddətli layihələr nəticəsində güclər 10 qiqavata qədər artırılacaq. Bu, tamamilə icra olunandır, bununla bağlı yol xəritəmiz var. Yalnız həmin layihə nəticəsində "Masdar" ilə apardığımız əməkdaşlıq Azərbaycanı yaşıl enerjinin çox mühüm ixrac mənbəyinə çevirəcəkdir.

Bütövlükdə, Azərbaycanın beynəlxalq enerji şirkətləri ilə imzaladığı anlaşma memorandumları və sazişlər bizə 22 qiqavata qədər külək və günəş enerjisini istehsal etmək imkanını yaradacaq.

Əlbəttə ki, bu məqsəd üçün, artıq qeyd etdiyim kimi, bizə ixrac marşrutları lazımdır. Elə ötən ay - dekabrın 17-də Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya Gürcüstanın Qara dəniz sahilindən Rumıniyanın Qara dəniz sahilinə qədər "Qara dənizin dibi ilə elektrik kabelinin çəkilməsinə dair" Saziş imzaladılar. Bu Saziş Avropa Komissiyası Prezidentinin şahidliyi ilə imzalanmışdır. Planımız Azərbaycandan 4 qiqavatlıq yaşıl enerjini nəql etmək imkanını yaradacaq kabeli çəkməkdir. Lakin bu, kifayət etməyə bilər. Burada söhbət artıq razılaşdırılmış həcmlər barədə gedir. Lakin planlarımız daha genişdir.

Azərbaycanda investisiya mühiti çox müsbətdir. Biz neft və qaz sektoruna böyük sərmayələr cəlb etmişik. İndi isə hədəfimiz bərpaolunan enerjidir. Digər sözlə, planlarımız böyükdür və əminəm ki, işlərin öhdəsindən gələcəyik.

Çox sağ olun.

* * *

Daha sonra Zayed Dayanıqlılıq Mükafatının təqdimat mərasimi olub.

Qeyd edək ki, Əbu-Dabi Dayanıqlılıq Həftəsi dünyanın dayanıqlı inkişafının sürətləndirilməsini hədəfləyən beynəlxalq platformadır. Dayanıqlılıq Həftəsi bu məqsədə çatmaq üçün öz proqramını üç prinsip - qlobal əməkdaşlıq və liderlik, iqtisadi inkişaf və texnologiya, eləcə də innovasiya üzrə həyata keçirir.

2008-ci ildə təsis olunan Əbu-Dabi Dayanıqlılıq Həftəsi planetimizin gələcəyində payı olan dövlət və hökumət başçılarını, siyasətçiləri, sənaye liderlərini, sərmayəçiləri, iş adamlarını və gəncləri aktual məsələlərin müzakirəsi üçün bir araya gətirir. Budəfəki Dayanıqlılıq Həftəsində dünyanın 150 ölkəsindən 30 minədək nümayəndə iştirak edir.

Azərbaycanın bu mötəbər beynəlxalq tədbirə dəvət olunması Prezident İlham Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf edərək mühüm beynəlxalq layihələrin müəllifinə və təşəbbüskarına çevrilən ölkəmizin dünya miqyasında artan nüfuzunun göstəricisidir. Zəngin neft-qaz potensialı ilə Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan Azərbaycan Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində bu sahədə imkanlarını daha da şaxələndirir və elektrik enerjisi, əsasən, yaşıl enerjinin önəmli təchizatçısına çevrilməyi planlaşdırır. Azərbaycanın 200 qiqavata yaxın bərpaolunan enerji potensialı ölkəmizi dünyanın diqqət mərkəzinə çevirib.

Bu zəngin potensialdan istifadə olunmasına artıq başlanılıb. Ötən ilin yanvarında 240 MVt gücündə "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının, martda isə 230 MVt gücündə "Qaradağ" Günəş Elektrik Stansiyasının təməli qoyuldu. "Qaradağ" Günəş Elektrik Stansiyası Birləşmiş Ərəb Əmirliklərinin bu sahədə tanınmış "Masdar" şirkəti tərəfindən inşa edilir.

Prezident İlham Əliyevin yürütdüyü enerji siyasətinin əsas istiqamətlərindən biri də işğaldan azad olunan ərazilərin potensialının qiymətləndirilməsi və istifadə olunmasıdır. Yaxın aylarda Cəbrayıl rayonunda 240 MVt gücündə "Şəfəq" Günəş Elektrik Stansiyasının istifadəyə verilməsi planlaşdırılır.

Ötən il dekabrın 17-də Buxarestdə yaşıl enerji ilə bağlı strateji tərəfdaşlıq haqqında Sazişin imzalanması da bu istiqamətdə atılan mühüm addımlardan biri olub. Bu layihə ilə Azərbaycanın bu sahədə qarşıya qoyduğu əsas hədəf ixrac həcminin genişləndirilməsidir. Beləliklə, bərpaolunan enerji sahəsində zəngin potensiala sahib olan Azərbaycan bu istiqamətdə də reallaşdırdığı layihələrlə enerji təhlükəsizliyinin təmin olunmasında mühüm aktor kimi öz fəaliyyətini durmadan genişləndirir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri yanvarın 16-da başa çatıb.

Əbu-Dabi Prezident Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Prezident İlham Əliyevi rəsmi şəxslər yola salıblar.

**AZƏRTAC-ın materialları əsasında**

# Qadir əsgərlərimizlə qürurlanırıq

Ordu quruculuğu təkcə nəzəri əsaslarla aparılmır, ordu quruculuğu həm də milli mentalitetə əsaslanır.

Mən zabit peşəsini seçəndə də, təhsil aldığım Heydər Əliyev adına Hərbi Liseydə, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut), hərbi xidmətimin ilk illərində də duyurdum, bilirdim ki, dövlət üçün, dövlətçilik üçün gərəkli olan bu proses həm də hərbi dərsliklərdən əlavə müəyyən amillərlə də müəyyənləşdirilir. Əsgərin əsgərə, əsgərin zabitə, zabitin əsgərə münasibəti belə amillər sırasındadır. Mən bunu İkinci Qarabağ müharibəsində daha duyğusallıqla gördüm, gördüklərimin fəlsəfəsində daha duyğusallıqla yaşadım.

Döyüşlərdə əsgər təkcə özünü deyil, əsgər yoldaşını da müdafiə edirdi, komandirini də. Bu isə bilavasitə Vətəni müdafiə etmək deməkdir. Yəni, Azərbaycan əsgəri bütün hallarda Vətən sevgisi ilə xidmət edib, indi də belə xidmət edir.

Xidmət etdiyim hərbi hissə İkinci Qarabağ müharibəsində neçə-neçə döyüşün iştirakçısı oldu. Bu döyüşlərdə bizim əsgərlərimiz də qətiyyətlə, cəsarətlə vuruşdular. Döyüşlər nisbətən səngiyəndə əsgərlərdən birinin dediklərini unutmamışam, heç zaman unutmayacağam da: "Komandir, biz şəhid döyüşçülərimizi də sıramızda bilib vuruşuruq. Ona görə də bizə məğlubiyyət yoxdu. Ali Baş Komandanın sərkərdəliyi ilə müharibəni qələbə ilə tamamlayacağıq". Əsgərin dedikləri hamımızı duyğulandırdı. Həmin gün və səhərisi daha qətiyyətlə döyüşən əsgərlərimiz düşmənin neçə-neçə döyüş texnikasını sıradan çıxartdı, 30-a yaxın canlı qüvvəsini məhv etdi. Vətən müharibəsində zabitlərimizlə əsgərlərimiz arasında duyulması çətin olmayan gözəl bir ehtiram vardı. Bu ehtiramın digər hərbi hissələrdə də olduğuna zərrəcə şübhəm yoxdur.



İkinci Qarabağ müharibəsi Ali Baş Komandanın sərkərdəliyi ilə Zəfərlə başa çatdı, torpaqlarımız işğaldan azad edildi, azərbaycançılıq erməniliyi məğlub etdi. Qalib əsgərlər tərxis olundular. Zabitlər, gizirlər, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları xidmətlərini davam etdirirlər. Onların müharibə təəssüratları bu günün əsgərləri üçün həm maraqlıdır, həm də vətənpərvərlik duyğularının daha gözəl formalaşması baxımından gərəklidir. Bu təəssüratlar ancaq döyüşləri əhatə etmir, onlar həm də döyüşlə bağlı məqamları, döyüşü, döyüşdən sonrakı anları da yaşadır. Əsgərlər əsgərin əsgərə, əsgərin zabitə, zabitin əsgərə münasibətinin necə olduğunu da öyrənirlər. Öyrəndikləri onun xarakterinə hopur. O da müharibə iştirakçısı olmuş əsgərlərə oxşamaq istəyir. Cəsarətdə də, qətiyyətdə də, xarakterdə də.

Bu günün əsgərləri döyüşdə əsgərin yaralanmış zabiti güllələr içindən necə çıxartdığını da eşidir, komandirin əsgərini atışda necə himayə etdiyini də. Müharibənin ilk günlərində Kəlbəcər istiqamətində baş leytenant Elvin Şükürlü döyüşdən əvvəl əsgərin "Şəhid olsam, qisasımı alın..." kəlmələrinə görə şəhid əsgərinin qisasını almaq üçün düşmənin mövqeyinə gedib. Tək döyüşüb, dörd düşməni öldürdükdən sonra şəhid olub. Əsgərlərimiz bunu da bilirlər. Zabitin əsgərə qardaş sevgisi səviyyəsində ehtiramı onların mənəvi-psixoloji hazırlığında əhəmiyyətli oldu...

Əsgərlərimiz qəhrəmanlıqların da, şəhidliyin də mahiyyətinin Vətənə sevgi olduğunu bilirlər. Bu bilgi onların hər birinin əsgər kimi mətinləşməsində mənəvi amillərdəndir. Digər hərbi hissələrdə olduğu kimi, bizim hərbi hissədə də bu amil mənəvi-psixoloji hazırlıqda istinad edilən vasitələrdəndir.

Hərbi hissəmizdə əsgər-əsgər, əsgər-zabit, zabit-əsgər münasibətləri həm Hərbi Nizamnamələrin tələblərinə, həm də milli mentalitetə uyğundur. Buna görə də hərbi hissəmizdə intizam yüksək səviyyədədir.

Hərbi xidmətini başa çatdırıb tərxis edilən əsgərlərimiz həm əsgər yoldaşları ilə, həm də komandirləri ilə səmimi əlaqə saxlayırlar. Bu əlaqə müəyyən mənada, münasibətləri yaşatma niyyətidir. Əsgərlərimiz bunun ənənə olacağına həm inanır, həm də bu inama görə əsgər dostluğunu hərbi xidmətin tərkib hissəsi bilirlər.

Yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malik olan əsgərlərimiz istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir. Biz qəhrəmanlığın da, şəhidliyin də Vətənə xidmət olduğunu bilən qadir əsgərlərimizlə qürurlanırıq...

**Kapitan**
**Taleh ALCƏFƏROV**
**"N" hərbi hissəsi**

## General-polkovnik Zakir HƏSƏNOV:

# ““Heydər Əliyev İli” çərçivəsində Azərbaycan Ordusunda keçiriləcək silsilə tədbirlər şəxsi heyətin döyüş ruhunun daha da yüksəldilməsində mühüm rol oynayacaq”

*Yanvarın 14-də müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, müşavirədə nazir müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri, eləcə də videobağlantı vasitəsilə hərbi birlik və birləşmə komandirləri iştirak ediblər.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin yerli televiziya kanallarına son müsahibəsi zamanı ordunun xidməti-döyüş fəaliyyətinin, eləcə də aparılan hərbi islahatların yüksək qiymətləndirildiyini vurğulayan nazir, Ali Baş Komandanın Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları müşavirə iştirakçılarının diqqətinə çatdırıb.

Sonra Azərbaycan-Ermənistan şərti sərhədində və Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərimizdəki əməliyyat şəraiti geniş təhlil edilib.

General-polkovnik Zakir Həsənov bölmələrin döyüş hazırlığının yüksək səviyyədə saxlanılması və baş verə biləcək istənilən təxribatın qarşısının alınmasına hər an hazır olunması barədə konkret tapşırıqlar verib.

Silahlanmada olan yeni silah və döyüş texnikasının şəxsi heyət tərəfindən öyrənilməsi, onların düzgün istismarı və effektiv tətbiqi məqsədilə mütəxəssis hazırlığına xüsusi diqqət yetirilməsinin əhəmiyyəti vurğulanıb.

Azərbaycan Ordusunda peşəkar kadr heyətinin hazırlanması məqsədilə təhsil sahəsində aparılan islahatlar geniş müzakirə edilib. Bu istiqamətdə görülən işlərin intensivliyinin artırılması ilə bağlı aidiyyəti şəxslərə konkret tapşırıqlar verilib.



Qış tədris dövründə döyüş hazırlığının xüsusiyyətlərini müşavirə iştirakçılarının diqqətinə çatdıran müdafiə naziri qış aylarında, xüsusilə də dağlıq ərazilərdə dislokasiya olunan bölmələrin təminat məsələlərinin, o cümlədən təminat yollarının və rabitə-kommunikasiya xətlərinin daim işlək vəziyyətdə saxlanılmasının vacibliyini qeyd edib.

Azad edilmiş əraziləri mina və partlamamış döyüş sursatlarından təmizlənməsi məqsədilə görülən mühəndis tədbirlərinin 2023-cü ildə də plana uyğun olaraq müəyyən edilmiş istiqamətlər üzrə davam etdirilməsi tapşırılıb.

2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən orduda keçiriləcək silsilə tədbirlərin şəxsi heyətin döyüş ruhunun daha da yüksəlməsində mühüm rol oynayacağını bildirən nazir ideoloji iş və mənəvi-psixoloji təminat istiqamətində fəaliyyətlərin yüksək keyfiyyətlə həyata keçirilməsi barədə müvafiq vəzifəli şəxslərə göstərişlər verib.

Gündəlik fəaliyyət zamanı təhlükəsizlik qaydalarına ciddi riayət edilməsi, hərbi qulluqçulara, xüsusilə xidmətə yeni qəbul edilən gənc əsgərlərə diqqət və qayğı ilə yanaşılması, onların mövsümi xəstəliklərdən qorunması məqsədilə aparılan tibbi-profilaktik tədbirlərə nəzarətin daha da gücləndirilməsi tapşırılıb.

Sonda qoşun xidmətinin təşkili, eləcə də hərbi qulluqçuların xidməti və sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması ilə bağlı aidiyyəti üzrə müvafiq göstərişlər verilib.

# Müdafiə Nazirliyinin rəhbər heyəti Quru Qoşunlarının hərbi hissələrində olub

*Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev, Quru Qoşunların komandanı general-leytenant Ənvər Əfəndiyev və nazirliyin digər vəzifəli şəxsləri “N” hərbi hissəsində olublar.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətə xəbər verir ki, hərbi xidmətə yeni çağırılan gənclərin ən çox toplandığı hərbi hissədə şəxsi heyətin qəbulu prosesi, onların ilkin təməl hazırlığı kursunda iştirakı və hərtərəfli təminatı yoxlanılıb.

General-polkovnik Kərim Vəliyev gənc əsgərlərin vətənpərvərlik ruhunda tərbiyə olunması, qanun və hərbi nizamnamələrin tələblərinə ciddi riayət etməsi, həmçinin onların intensiv döyüş hazırlığının təşkili və keçirilməsi məsələlərinə xüsusi diqqət yetirilməsi ilə bağlı vəzifəli şəxslərə tapşırıqlar verib.

Daha sonra Müdafiə Nazirliyinin rəhbər heyəti Ermənistanla sərhəddə yerləşən komando və digər hərbi hissələrdə olub, şəxsi heyətin intensiv dağ hazırlığı məşğələsini izləyib.



Yüksək dağlıq və çətin relyefli ərazidə hazırlıq keçən komandolarla görüşən general-polkovnik Kərim Vəliyev hərbi qulluqçuların praktiki məşqlərində əsas diqqətin döyüşün aparılmasının üsul və taktikasına yönəldilməsini tapşırıb.

Gündüz və gecə vaxtı keçirilən məşqlərdə dağ şəraitində taktiki və atəş hazırlığı, dağ yolları, aşırım və yüksəkliklərdən keçmək bacarığı, həmçinin digər bölmələrlə uyarlıq məsələləri öyrənilir.

Qoşunların dağ hazırlığı tapşırıqlarında döyüş təcrübəsi nəzərə alınmaqla şəxsi heyətin dağlıq ərazilərdəki təbii maneələri dəf etmək vərdişlərinin təkmilləşdirilməsinə, ştat silahından, o cümlədən dronlardan effektiv istifadə edilməsinə, həmçinin gündüz və gecə vaxtı istənilən hava şəraitində döyüşün aparılması bacarığına xüsusi diqqət yetirilir.

Baş Qərargah rəisi hərbi qulluqçuların peşəkar hazırlıq səviyyəsinin yüksəldilməsi, təlim və məşqlərin intensivliyi və keyfiyyətinin daha da artırılması ilə əlaqədar aidiyyəti vəzifəli şəxslərə müvafiq göstərişlər verib.







# Hərbi hüquqşünaslarla təlim-metodiki toplanış keçirilib





Müdafiə nazirinin təsdiq etdiyi cari ilin fəaliyyət planına uyğun olaraq, Azərbaycan Ordusunun qoşun növü, baş idarə, idarələrin hüquqşünasları və Hüquq İdarəsinin zabitləri ilə təlim-metodiki toplanış keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olan həmvətənlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Təlim-metodiki toplanış zamanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yerli televiziya kanallarına son müsahibəsində Azərbaycan Ordusu ilə bağlı səsləndirdiyi fikirlər şəxsi heyətin diqqətinə çatdırılıb.

Toplanışda hərbi intizamın daha da möhkəmləndirilməsi, qanun pozuntularına yol verilməməsi, şəxsi heyətə beynəlxalq humanitar hüququn əsasları, norma və prinsipləri, həmçinin silahlı münaqişə dövründə onların tətbiq edilməsinin əhəmiyyətinin çatdırılması istiqamətində görülən işlər haqqında danışılıb, bu istiqamətdə cari ildə qarşıda duran vəzifələr müzakirə edilib.

Həmçinin hərbi hissələrdə hüquq hazırlığının daha səmərəli təşkili, hərbi qulluqçuların hüquqi cəhətdən maarifləndirilməsi və digər mövzular üzrə məruzələr dinlənilib.

"Heydər Əliyev İli" çərçivəsində Azərbaycan Ordusunda hüquq sahəsində görüləcək işlərlə bağlı ətraflı müzakirələr aparılıb.

İştirakçıların hüquq hazırlığının təşkili üzrə bilik və bacarıqlarının təkmilləşdirilməsi, qanunvericiliyin və rəhbər sənədlərin tələblərinin öyrənilməsi məqsədilə keçirilən təlim-metodiki toplanışda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# “AKINCI” idarəetmə kursunu bitirən azərbaycanlı hərbçilərə sertifikatlar verilib








Türkiyənin Tekirdağ şəhərində yerləşən Çorlu Uçuş Təlim Mərkəzində "Baykar" Müdafiə Sənayesi Şirkəti tərəfindən təşkil edilən "AKINCI" silahlı pilotsuz uçuş aparatını idarəetmə kursu"nun növbəti buraxılışına həsr olunan mərasim keçirilib.

Mərasimdə "Baykar" şirkətinin təmsilçiləri, ictimaiyyət nümayəndələri, kursun rəhbər və müəllim heyəti, eləcə də Azərbaycanın Türkiyədəki səfirliyinin Hərbi attaşelik aparatının əməkdaşları iştirak ediblər.

Səfirlikdən AZƏRTAC-a verilən məlumata görə, Türkiyə və Azərbaycanın Dövlət Himnlərinin səsləndirilməsi ilə başlayan mərasimdə iki qardaş ölkənin şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Məzunlar çıxışlarında mərkəzdə yaradılmış hərtərəfli şəraitdən danışaraq, onların yüksək səviyyəli kadr kimi yetişməsində böyük rolu olan kursun rəhbər və müəllim heyətinə minnətdarlıqlarını ifadə ediblər.

Azərbaycan Silahlı Qüvvələrinin hərbi attaşesi polkovnik Müşfiq Məmmədov kursu müvəffəqiyyətlə bitirən hərbi qulluqçularımızı təbrik edərək, onlara Azərbaycan Respublikasının müdafiəsi naminə gələcək xidməti fəaliyyətlərində uğurlar arzulayıb.

Tədbirin sonunda kursu bitirən türkiyəli və azərbaycanlı məzunlarla sertifikatlar təqdim edilib.

*Döyüş təəssüratları*

# Döyüşlərə qələbə ruhu ilə gedirdik

*Hələ orta məktəbdə oxuyan dövrdən hərbçi olmaq arzusu ilə yaşayırdım. Çünki bu peşə sahibləri Vətən torpaqlarının keşiyini çəkir, yurdu, el-obanı qoruyurlar. Ürəyimi isidən bu arzuya çatmaq üçün bütün sınaqlardan keçməyə özümdə böyük güc hiss edirdim. Qoynunda dünyaya göz açdığım Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Püsyan kəndində hərbçilər çox idi. Mən də onlardan biri olmaq istəyirdim.*

Nəhayət, arzuma qovuşmaq üçün zaman yetişdi. Valideynlərimin də mənəvi dəstəyi ilə Heydər Əliyev adına Hərbi Liseyə qəbul oldum.

Liseydə hərbi biliklərə yiyələndim. Dərslərlə yanaşı, hərbi vərdişləri də öyrəndim. Çox sevinirdim ki, hərbçi olacağam, zabit kimi ordumuzun sıralarında xidmət edəcəyəm. 2014-cü ildə imtahanlardan uğurla keçib Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) qəbul oldum. Ali hərbi təhsil alaraq artilleriya ixtisasına yiyələndim.

2018-ci ildə "N" hərbi hissəsində xidmətə başladım. Zabit kimi qarşımda müqəddəs bir vəzifə dayanmışdı. Yurdumuzu erməni işğalçılarından göz bəbəyimiz kimi qorumalıydıq, uzun illərdən bəri işğalda qalmış torpaqlarımızı azad etməliydik. Xidmətimin ilk günlərindən artilleriya qurğularının sirlərini gənc əsgərlərə öyrətməyə çalışırdım. Əsgərlər də öz növbəsində döyüş hazırlığını artırırdılar. Çünki torpaqlarımız uzun müddət erməni işğalında qala bilməzdi. Ölkəmizin ərazisini qəsbkarlardan azad etməliydik. Müharibə qaçılmaz idi.

27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başlandı. Elə həmin gün biz əks-hücum




əməliyyatlarına cəlb olunduq. Bölüyümüzü Füzuli istiqamətinə göndərdilər. Düşmən mövqelərinə artilleriya zərbələri endirirdik. Hücumlarının qarşısı alınan düşmən geri çəkilməyə məcbur olurdu. Elə ilk döyüşlər göstərdi ki, qələbə bizimlədir.

Füzuli rayonundan başlanan döyüş yolumuz Cəbrayıldan, Xocavənddən keçdi, Şuşada Zəfərlə tamamlandı. Torpaqlarımızın azadlığı uğrunda döyüşə-döyüşə irəliləyir, yurdumuz erməni qəsbkarlarından təmizləndikcə gözlərim sevincdən yaşarırdı. Hamımız düşmən üzərinə qələbə əzmi ilə gedirdik. Zəfər qazandıq, torpaqlarımızı işğaldan azad etdik.

Vətən müharibəsində göstərdiyim cəsarət və hünər layiqincə qiymətləndirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Vətən uğrunda" medallarına layiq görülmüşəm.

Düşmən üzərində qazandığımız qələbələr bizi arxayınlaşdırmır. Bu gün yenə də təlimməşqlər keçir, daim döyüş hazırlığımızı artırırıq.

**Baş leytenant
Röyal RƏCƏBOV
"N" hərbi hissəsi**

# Haluk Bayraktar: “Baykar” şirkəti dünyada ən böyük PUA ixracatçısıdır

Bu ilin sonuna kimi "Bayraktar TB3" pilotsuz uçuş aparatlarının kütləvi istehsalına başlayacağıq. Türkiyə olaraq özümüzün silahlı pilotsuz uçuş aparatını (PUA) və pilotsuz döyüş təyyarəsini inkişaf etdirəcəyik.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin "Baykar" şirkətinin baş icraçı direktoru Haluk Bayraktar "Haber TÜRK" telekanalının efirində səsləndirib.

"Baykar" şirkətinin keçdiyi inkişaf yolu, qarşılaşdıqları maneələr, perspektivdə olan strateji layihələr barədə geniş məlumat verən Baş direktor Haluk Bayraktar bildirib ki, hazırda təmsil etdiyi şirkət dünyada ən böyük PUA ixracatçısıdır.

Haluk Bayraktar deyib: "Dünyada bizdən çox ölkəyə bu ölçüdə PUA verən başqa bir şirkət yoxdur".

# 20 Yanvar - müstəqillik tariximizin şərəf səhifəsi



*İllər ötür, hadisələr tarixləşir. Tarixləşən hadisələr unudulmur...*

*XX yüzillik Azərbaycan xalqının taleyində müstəqillik və azadlıq uğrunda mübarizə, milli oyanış və özünüdərk əsri oldu. Milli birliyə və sarsılmaz iradəyə hansı dərəcədə malik olması qarşılaşdığı çətin anlarda xalqın iradəsi kimi ortaya çıxır. 1988-ci ildən başlayan milli-azadlıq hərəkatı belə iradə idi. Bu iradə də tarixləşdi, bu qətiyyətə qarşı sovet imperiyasının qəddarlığı da...*

Tarixə və qan yaddaşımıza böyük faciə və qəhrəmanlıq kimi həkk olunan 20 Yanvar xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi mübarizənin şərəfli tarixidir. Bu tarix Azərbaycanın istiqlalı yolunda milli məfkurəmizdən güc alan qarşısıalınmaz azadlıq istəyinin bir başlanğıc mərhələsi oldu.

1990-cı il yanvarın 20-də baş verən qanlı hadisədən 33 il ötür. Hər il Ümumxalq Hüzn Günü kimi geniş qeyd olunan 20 Yanvar faciəsi Azərbaycan Respublikasının müstəqilliyi uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi, milli iradəmizin imperiya üzərində zəfər çaldığı gün kimi daxil olub. Bu tarix azərbaycançılığın qüdrətinin dünyaya bəyan edilməsinin başlanğıcı idi.

Sovet İttifaqında uzun müddət davam edən durğunluğu tədricən iqtisadi böhran əvəz etmişdi. Vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması üçün hökumətin əməli tədbirlər görməməsi və digər neqativ hallar vaxt keçdikcə haqlı narazılığı artırırdı. Digər tərəfdən, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və Dağlıq Qarabağda separatizm meyillərinin qızışdırılması onsuz da mürəkkəb olan ictimai-siyasi vəziyyəti daha da gərginləşdirirdi. Bu amillər və onlardan rişələnənlər açıq mübarizə müstəvisində Azərbaycan xalqının müstəqillik arzusunun gerçəkləşməsinə zəmin yaratdı.

Beləliklə, bir tərəfdən, Azərbaycan xalqının milli-azadlıq hərəkatının dirçəlməsi, digər tərəfdən ölkə daxilində ictimai-siyasi vəziyyətin kəskinləşməsi Sovet İttifaqının rəhbərliyinin hazırladığı planın həyata keçirilməsi üçün də bir fürsət oldu. Azərbaycana qarşı sərt tədbirlərin görülməsi üçün şərait yarandı.

1990-cı il yanvarın ortalarından da SSRİ Müdafiə və Daxili İşlər nazirliklərinin, digər xüsusi təyinatlı hərbi qurumların iyirmi mindən çox əsgər və zabiti Bakıya və şəhər ətrafındakı hərbi hissələrə yerləşdirildi. Bu ordu hissələrinin tərkibinə Stavropol, Rostov və Krasnodardan əsasən erməni zabit və əsgərlər, hərbi məktəblərdə təhsil alan erməni kursantlar da cəlb edilmişdilər.

1990-cı il yanvarın 19-da Azərbaycan SSR Ali Soveti hüquqi qüvvəsi olmayan 15 yanvar tarixli saxta qərarına əsasən yanvarın 19-dan 20-nə keçən gecədən etibarən "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman qəbul etmişdi.

Yanvarın 19-da SSRİ DTK-nın "Alfa" qrupu və respublika DTK-sının rəhbərliyi tərəfindən təşkil edilən əməliyyat nəticəsində respublika televiziyasının enerji bloku partladıldı ki, buna görə də Bakıda fövqəladə vəziyyətin elan edilməsi və şəhərə qoşun yeridilməsi barədə əhaliyə rəsmi məlumatı çatdırmaq mümkün olmadı, yəni, qırğının miqyası bu şəkildə daha da artırılacaqdı.

Fövqəladə vəziyyət yanvarın 19-dan 20-nə keçən gecə tətbiq edilməliydi, ancaq qoşun hissələri yanvarın 19-da saat 21-dən etibarən əvvəlcə Türkan-Qala tərəfdən şəhərə yeridildi. "Bakı əməliyyatı"na SSRİ Müdafiə naziri Dmitri Yazov, SSRİ Daxili İşlər naziri Vadim Bakatin, SSRİ DTK sədrinin müavini Filip Babkov rəhbərlik etmişdilər.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıya yeridilən qoşun hissələri küçələrə çıxıb istər erməniliyin törətdiklərinə, istərsə də sovet imperiyasının bu hadisələrə biganəliyinə etirazlarını bildirən dinc əhaliyə qarşı bəşər tarixinin insanlığa sığmayan ən faciəvi hadisələrindən biri - dinc nümayişçilərin güllələbaranı baş verdi. Ağır hərbi texnika barrikadaları çox asanlıqla dağıtdı. Hərbçilər təsadüfən küçəyə çıxanları, yaşayış evlərini, təcili yardım maşınlarını atəşə tutur, yaralıları öldürür, meyitləri yandırır, təhqir edir, eybəcər hala salırdılar. Adamları ağır hərbi texnikanın tırtılları altına salır, əzabla öldürürdülər.




Əhaliyə fövqəladə vəziyyətin elan olunması çatdırılanadək hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışdılar. Fövqəladə vəziyyət elan edildikdən sonra - yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində 21 nəfər öldürülmüşdü. Fövqəladə vəziyyət elan olunmayan rayonlarda - yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirildi.

İnsanlığa sığmayan qəddarlıqla milli-azadlıq hərəkatını, 1920-ci il ilhaqına qarşı mücadiləni boğmaq, yatırtmaq məqsədilə Azərbaycana yeridilən imperiya qoşunları Bakıda və respublikanın müxtəlif rayonlarında 146 nəfər mülki şəxsi küçələrdə, evlərində, avtomobillərində, iş yerlərində qətlə yetirdi. 700-dən çox adam yaralandı, 841 nəfər qanunsuz həbs olundu.

O vahiməli gecənin aydınlığa çıxması Bakının ürəkağrıdan dəhşətli mənzərəsinə işıq saldı. Xalq düşmən tankının tırtılları altında parçalanmış, sinələri düşmən güllələrindən deşik-deşik olmuş övladlarını qan gölünə dönmüş küçələrdən tapdı. Bu, Azadlığın bərpasına gedən yolda ilk şəhidlərin verildiyi 20 Yanvar səhəri idi...

Nə qədər hüznlü və acı olsa da, xalq öz mübariz, qəhrəman övladlarını son mənzilə yola salmağa özündə güc tapdı. Haqq, azadlıq yolunda şəhidlik zirvəsinə ucalmaq qədər şərəfliydi düşmən silahının nişangahında Vətənin şəhidlərini layiqincə son mənzilə yola salmaq. Var olduğu gündən işğalçılar qarşısında baş əyməyən xalqımız sarsılmadı, əyilmədi, qorxmadı. Müqəddəs zirvənin fatehləri yüz minlərin çiynində əbədiyyətə qovuşdu.

Azərbaycan xalqı yüz illiyin sonunda böyük qurbanlar verdi, tarixinin taleyüklü günlərində də milli ruhunun sarsılmazlığını və mətinliyini nümayiş etdirdi. Tarix bir daha göstərdi ki, dövlətçilik ənənələrini yaşadan xalqımızı müstəqilliyi uğrunda mübarizədə susdurmaq, mübarizədən çəkindirmək, qorxutmaq, dayandırmaq mümkünsüzdür.

Ümummilli Lider Heydər Əliyev həmin günlərdə özünün və ailəsinin həyatını təhlükə altına ataraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlmiş, kommunist partiyası rejiminin Azərbaycanda həyata keçirdiyi qanlı aksiyanı qətiyyətlə pisləmiş, xalqımıza qarşı törədilən bu cinayətə, günahsız insanların öldürülməsinə etirazını bildirmiş, təşkilatçıların, günahkarların cəzalandırılmasını tələb etmişdi. Ulu Öndər həmin günlərdə Azərbaycan xalqının kədərini bölüşməklə yanaşı, qanlı 20 Yanvar hadisəsinə ilk siyasi qiymət vermişdir.

Xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 20 Yanvar şəhidlərinin xatirəsini əbədiləşdirmək məqsədilə Şəhidlər xiyabanında "Əbədi məşəl" abidə-kompleksi ucaldılmışdır. Həmçinin, Azərbaycan Prezidentinin 2000-ci il yanvarın 17-də imzaladığı fərmanla 1990-cı il 20 Yanvar faciəsi zamanı şəhid olanlara "20 Yanvar Şəhidi" adı verilmişdir.

Ulu Öndər sonradan o günləri xatırlayarkən deyirdi: "Azərbaycan xalqı 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, Vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi".

Bu siyasəti Ümummilli Liderin layiqli davamçısı Prezident İlham Əliyev bu gün də uğurla davam etdirir. Prezident İlham Əliyev də 20 Yanvar şəhidi ailələrinin və yaralılarının qayğılarını daim diqqət mərkəzində saxlayır. Dövlət başçısının fərmanlarına əsasən 20 Yanvar hadisələri zamanı əlil olmuş şəxslər və şəhid ailələri üçün təqaüdlərin artırılması, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması bu diqqət və qayğının daha bir bariz nümunəsi kimi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin məqsədyönlü siyasəti və qətiyyəti, xalqımızın vəhdəti və Silahlı Qüvvələrimizin rəşadəti nəticəsində torpaqlarımız işğaldan azad olundu. Şanlı Zəfərimiz xalqımızın qəhrəman oğullarının hər an Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçməyə hazır olduğunu bir daha təsdiqlədi.

Torpaqlarımızın bütövlüyü və müstəqilliyimiz uğrunda mübarizədə qurban getmiş şəhidlər heç vaxt unudulmayacaq. Ucaldıqları müqəddəslik onları ölməzliyə - Əbədiyyətə, xalqımızı isə Azadlığa qovuşdurdu.

**Kapitan**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

---

20 Yanvar faciəsi hər bir azərbaycanlının həm qəhər, həm də qürur günüdür.

Ermənistanın Azərbaycandan torpaq iddiası siyasi mübarizəyə səbəb olmuşdu. Bu mübarizə Azərbaycan xalqının milli-azadlıq hərəkatı idi. Bu hərəkat milyonların mitinqi ilə davam edirdi. Xalq mübariz şair X.R.Ulutürkün dediyi kimi, azadlığı zərrə-zərrə, qramqram istəmirdi, sovet imperiyasının müstəqilliyin qollarına vurduğu zəncirləri qırmaqda qətiyyətliydi. Bu mübarizə həm Ermənistanın işğalçılıq niyyətinə, həm də Azərbaycanda sovet imperiyasının müstəmləkəçilik siyasətinə yönəl-mişdi. Nəticədə İmperiya Azərbaycanda başlayan milli-azadlıq hərəkatından qorxuya düşmüşdü. Bu hərəkatı boğmaq üçün müxtəlif tədbirlər görsə də, istəyinə nail ola bilməmişdi. İmperiya Bakıya qoşun yeritdi. 1990-cı ilin 19 yanvar gecəsi təməli xəyanətlə qoyulan, dünya dövlətlərinə "müttəfiq respublikaların birliyi" kimi tanıdılan sovet imperiyası bu siyasətə etirazını bildirənləri sərt cəzalandırırdı. Azərbaycanın azadlıq mübarizləri bundan çəkinmədilər. İmperiyanın göndərdiyi qoşunun da qarşısına bu müstəqillik əqidəsiylə çıxdılar...

Sovet dövlətinin göndərdiyi qoşun Bakıda dinc insanları, evləri, dövlət idarələrini, yaralananlara kömək üçün gedən təcili yardım maşınlarını güllələyir, tanklar qarşısına çıxan maşınları əzib keçirdi. O gecə 146 nəfər öldürüldü, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz olaraq həbs edildi, neçələri itkin düşdü...

33 il əvvəl törədilmiş faciə indi də qəhərlə xatırlanır. Qəhərlə xatırlanan bu faciə həm də xalqımızın azadlıq, müstəqillik mübarizəsinin bir mərhələsi kimi yaddaşlarda yaşayır və yaşayacaq. Dövlət müstəqilliyimiz bu mübarizədən keçərək bərpa olundu...

İmperiyanın öyrədilmiş canilərі o günlərdə neçə-neçə qocanı, uşağı da qətlə yetirdilər. Faciənin səhərisi gün Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək faciəyə siyasi qiymət verilməsini, onun təşkilatçılarının da, icraçılarının da cəzalandırılmasını tələb etmişdi...

Qanlı Yanvar faciəsi xalqımızın mübarizə əzmini qıra bilmədi. Xalq şəhidləri Azadlıq meydanından Dağüstü parka kimi çiyinlərində apardı. Dağüstü park Şəhidlər xiyabanına çevrildi. Şəhidlər xiyabanı hamımızın ziyarətgahımız oldu.

Xalq daha da dəyanətlə müstəqillik uğrunda mübarizəni davam etdirdi. Azərbaycanda azadlıq mübarizəsi dövlət müstəqilliyimizin bərpası ilə nəticələndi...

20 Yanvar faciəsi azadlıq, müstəqillik tariximizin şərəfli səhifəsidir. Bu tarix heç zaman unudulmayacaq!..

**Ülviyyə YUSİFOVA**
**Bakı şəhəri**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

## Mövzu: Azərbaycan dövlətçiliyinin yaranma tarixi və inkişaf mərhələləri

**Suallar:**

**1. Qədim Azərbaycanda dövlətçilik ənənələri.**

**2. Orta əsrlər Azərbaycan dövlətləri haqqında.**

**3. XIX əsrdə Azərbaycanın Rusiya tərəfindən işğalı ərəfəsində Azərbaycan dövlətçiliyi.**

**4. Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir.**

### Qədim Azərbaycanda dövlətçilik ənənələri

XX yüzilliyin sonunda yenidən müstəqilliyinə qovuşan Azərbaycan xalqı qədim və zəngin dövlətçilik tarixinə malikdir. Tarixi Azərbaycan torpaqları müasir sivilizasiyanın inkişafa başladığı ən qədim mədəniyyət mərkəzlərindən biridir. Azıx, Tağlar, Damcılı, Daşsalahlı, Qazma mağaralarında, habelə başqa abidələrdə aşkar olunan arxeoloji tapıntılar, o cümlədən 300-400 min il bundan əvvəl yaşamış qədim insanın - Azıx adamının (Azıxantrop) çənə sümüyü bu diyarın dünyanın ən qədim insan məskənlərindən biri olduğunu sübut edir.

Azərbaycanlılar həm də dünyanın ən qədim dövlətçilik ənənələrinə malik olan xalqlarındandır. Tarixi Azərbaycan torpaqlarında dövlətçilik ənənələrinin təqribən 5 min illik tarixi var. Azərbaycan ərazisində ilk dövlət qurumları və ya etnik-siyasi birliklər hələ eramızdan əvvəl IV minilliyin sonu-III minilliyin əvvəllərindən başlayaraq yaranıb. Eramızdan əvvəl I minilliyin və bizim eranın I minilliyinin əvvəllərində Azərbaycan torpaqlarında Manna, Midiya, Atropatena və Albaniya kimi qüdrətli dövlətlər mövcud olub.

Manna dövləti yalnız Azərbaycanın deyil, eləcə də dünyanın dövlətçilik mədəniyyəti tarixində mühüm yer tutur. Manna bütün regionda baş verən hərbi-siyasi hadisələrdə yaxından iştirak edir, Azərbaycan torpaqlarını ələ keçirməyə çalışan qüvvətli qonşularına - Aşşur və Urartu dövlətlərinə qarşı mübarizə aparırdı. Eramızdan əvvəl VIII əsrin sonu-VII əsrin əvvəllərindən başlayaraq Azərbaycanın hərbi-siyasi tarixində kimmerlər və iskitlər, həmçinin iskitlərlə eyni kökdən olan saklar və massagetlər mühüm rol oynamağa başladılar.

Sonrakı dövrlərdə nə Əhəməni imperiyasının uzun sürən işğal rejimi, nə də Makedoniyalı İsgəndərin yürüşləri Azərbaycanın qədim dövlət idarəçiliyi mədəniyyətini məhv edə bilməyib. Ölkəmizin Cənub torpaqlarında Atropatena, Şimalında isə Albaniya dövlətləri meydana gəlib. Eramızın əvvəllərində ölkəmiz öz tarixinin ən ağır sınaq dövrlərindən biri ilə qarşılaşdı. III əsrdə Azərbaycanı Sasani imperiyası, VII əsrdə isə Ərəb xilafəti işğal etdi. İşğalçılar ölkəyə çoxsaylı irandilli və ərəb mənşəli əhali köçürtdülər. Gəlmə əhali mühüm hərbi-strateji əhəmiyyətə malik olan məntəqələrdə və ən məhsuldar torpaqlarda yerləşdirildi. Lakin bütün bunlar Azərbaycanın qədim dövlətçilik ənənələrini məhv edə bilmədi və Azərbaycan xalqının təşəkkülü prosesi davam etdi. Uzun tarixi dövr ərzində Azərbaycanın bütöv halda həmin imperiyaların tərkibində olması nəticəsində ölkənin bütün bölgələri arasında daxili əlaqələri və ticarət əlaqələri genişləndi. Azərbaycanın Şimal və Cənub, Şərq və Qərb bölgələri arasında etnik-siyasi və mədəni birliyin yaranması yolunda mühüm irəliləyiş baş verdi.

### Orta əsrlər Azərbaycan dövlətləri haqqında

Ərəb xilafəti dağıldıqdan sonra - IX əsrin ortalarından Azərbaycanın qədim dövlətçilik ənənələri yenidən dirçəldi. Azərbaycan torpaqlarında Sacilər, Şirvanşahlar, Salarilər, Rəvvadilər, Şəddadilər dövlətləri yarandı. 600 ilə qədər davam edən sasani və ərəb əsarətindən sonra yerli dövlətlərin yaranması, İslam dininin bütün ölkə ərazisində yayılması Azərbaycanın sonrakı inkişafında mühüm rol oynadı. Lakin Ərəb xilafətinin tənəzzülündən sonra yaranmış dövlətlərdən heç biri uzun tarixi dövr ərzində Azərbaycanın bütün ərazisini əhatə edən vahid, davamlı, qüdrətli dövlətə çevrilə bilmədi və davamlı siyasi sabitlik təmin olunmadı. Azərbaycan Orta Asiyadan Aralıq dənizi sahillərinə və Dərbənd keçidindən İran körfəzinə qədər geniş əraziləri əhatə edən Böyük Səlcuq imperatorluğunun tərkibinə daxil edildi. Böyük Səlcuq imperatorluğunun süqutundan sonra qüvvətlənən Şirvanşahlar və Eldənizlər dövlətləri Azərbaycan xalqının dövlətçilik ənənələrinin davam etdirilməsində və daha da yüksəlişində mühüm rol oynadılar. Yaxın və Orta Şərqin ən qüdrətli dövlətinə çevrilən Azərbaycan Eldənizlər dövləti xalqımızın etnik-siyasi tarixində xüsusi çəkiyə malikdir. Azərbaycan intibahı özünün Xaqani, Nizami, Əcəmi zirvəsinə ucaldı.

XV-XVIII əsrlərdə Azərbaycanın dövlətçilik mədəniyyəti daha da zənginləşdi. Bu dövrdə Şərqin geniş ərazili Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətləri bilavasitə Azərbaycan sülalələri tərəfindən idarə olunurdu. XV əsrin sonu-XVI əsrin əvvəllərində görkəmli dövlət xadimi Şah İsmayıl Xətai bütün Azərbaycan torpaqlarını öz hakimiyyəti altında birləşdirdi. Dövlət dili Azərbaycan dili, paytaxtı Təbriz şəhəri olan vahid, mərkəzləşdirilmiş Azərbaycan - Səfəvi dövləti meydana gəldi. Səfəvilərin hakimiyyəti dövründə Azərbaycanın dövlət idarəçiliyi mədəniyyəti daha da yüksəldi. Şah İsmayıl, Şah Təhmasib, Şah Abbas və digər Səfəvi hökmdarlarının fəaliyyəti, uğurlu daxili və xarici siyasəti nəticəsində Səfəvi dövləti qısa müddətdən sonra Yaxın və Orta Şərqin ən qüdrətli imperiyalarından birinə çevrildi. Səfəvi dövlətinin süqutundan sonra hakimiyyətə gələn görkəmli Azərbaycan sərkərdəsi Nadir şah (1736-1747) keçmiş Səfəvi imperiyasının sərhədlərini daha da genişləndirdi. Nadir şahın ölümündən sonra onun idarə etdiyi geniş ərazili imperiya süquta uğradı.

Beləliklə, XVIII əsrin ikinci yarısında Azərbaycan xırda dövlətlərə - xanlıqlara və sultanlıqlara parçalandı. Ölkənin hərbi-siyasi tənəzzül dövrü başlandı. Azərbaycanın qədim dövlətçilik ənənələrini yaşatmağa çalışan ayrı-ayrı xanlar bütün ölkəni yenidən vahid dövlət çərçivəsində birləşdirməyə çalışsalar da, bu, heç bir nəticə vermədi. Azərbaycanı işğal etməyə çalışan yadelli təcavüzkarların əlinə çox əlverişli fürsət düşdü. Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinə əsasən Azərbaycan torpaqları iki imperiya arasında bölüşdürüldü: Azərbaycanın Şimalı çar Rusiyasına, Cənubu isə Qacarların idarə etdiyi İran şahlığına qatıldı.

### XIX əsrdə Azərbaycanın Rusiya tərəfindən işğalı ərəfəsində Azərbaycan dövlətçiliyi

1918-ci il mayın 28-də müsəlman Şərqində ilk demokratik parlament respublikası - Azərbaycan Xalq Cümhuriyyəti elan edildi. Azərbaycanda müstəqil, demokratik dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi, ilk parlament və hökumət, dövlət aparatı, idarəetmə institutları formalaşdırıldı. Ölkənin sərhədləri müəyyənləşdirildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı, ərazi bütövlüyü və milli təhlükəsizliyin təmin edilməsi üçün mühüm işlər görüldü. Dövlət bayrağı, himni və gerbi qəbul edildi, Azərbaycan dili dövlət dili elan olundu və xalqın, milli dövlətçiliyin sonrakı illərdə hərtərəfli inkişafı üçün müstəsna əhəmiyyət kəsb edən mühüm məsələlərin həlli istiqamətində məqsədyönlü addımlar atıldı.

Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Şərqdə ilk dəfə və bəzi Avropa ölkələrindən xeyli əvvəl Azərbaycanda qadınlara seçki hüququ verildi. Təəssüf ki, Azərbaycan Xalq Cümhuriyyətinin ilk qərarlarından biri olduqca mürəkkəb tarixi şəraitdə - erməni hərbi birləşmələrinin azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti və özlərinə dövlət qurmaq üçün torpaq iddiaları irəli sürməsi şəraitində, Batumi danışıqları nəticəsində əldə edilmiş kompromis varianta əsasən İrəvanın paytaxt kimi Ermənistana verilməsi oldu. Bu böyük tarixi səhv Azərbaycan xalqının həyatında növbəti faciələrə və ermənilərin davamlı ekspansiyasına (təsir dairəsinin genişləndirilməsi) yol açdı.

1918-ci il dekabrın 7-də Azərbaycan Parlamentinin təntənəli açılışı oldu. Bu, bütün Müsəlman Şərqində o dövrün ən mütərəqqi, demokratik prinsipləri əsasında formalaşdırılmış ilk qanunverici orqan idi. Cümhuriyyət parlamentinin ilyarımlıq fəaliyyəti dövründə qəbul etdiyi qanunlar milli dövlətin müstəqilliyinin möhkəmləndirilməsinə, siyasi və iqtisadi inkişafa, mədəniyyət və maarif sahələrində sürətli irəliləyişə imkan verdi. 1920-ci il aprelin 28-də Azərbaycan bolşevik Rusiyası tərəfindən işğal edildi. Sovet hakimiyyəti dövründə Azərbaycan dövlətçiliyi çətin sınaqlar qarşısında qaldı. 1920-1922-ci illərdə Azərbaycanın artıq beynəlxalq birlik tərəfindən de-fakto tanınmış müstəqilliyi formal olaraq qismən qorunub saxlandı. 1922-ci ilin martında Cənubi Qafqazın üç respublikası (Azərbaycan, Gürcüstan, Ermənistan) vahid dövlət - Zaqafqaziya Sovet Sosialist Respublikaları Federativ İttifaqı (ZSSRFİ) çərçivəsində birləşdirildi və bununla da formal müstəqillik tam aradan qaldırıldı. Sovet İttifaqı dövründə Zəngəzur, Göyçə, Naxçıvanın bir hissəsi və digər rayonlar Azərbaycandan alınaraq Ermənistana birləşdirildi. Nəticədə, Azərbaycan Xalq Cümhuriyyəti dövründə 114 min kvadratkilometrə bərabər olan ölkə ərazisi 86,6 min kvadratkilometrə qədər azaldıldı.

Azərbaycanda sovet hakimiyyətinə qarşı müqavimət qəddarcasına, sürgünlərlə, repressiyalarla cavablandırıldı. 1937-ci il repressiyaları zamanı sovet hakimiyyəti ilə barışmayan Azərbaycan xalqının görkəmli ziyalılarının əksəriyyəti müxtəlif bəhanələrlə həbs edildi, Sibirə, Qazaxıstan çöllərinə sürgün edildi, bir çoxu güllələndi.

1969-cu il iyulun 14-də Ulu Öndər Heydər Əliyevin respublika rəhbərliyinə gəlməsi tarixi hadisə oldu. 1970-1980-ci illərin əvvəllərində respublika iqtisadiyyatının inkişaf etdirilməsi məqsədilə həyata keçirilən genişmiqyaslı tədbirlər, Azərbaycan aqrar respublikadan daha çox sənaye yönümlü respublikaya çevrilməsinə zəmin hazırladı.

### Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir

1991-ci il oktyabrın 18-də Azərbaycan dövlət müstəqilliyinə qovuşarkən özünü Xalq Cümhuriyyətinin siyasi və hüquqi varisi elan etdi və qədim dövlətçilik ənənələrinə sadiq qalaraq Azərbaycan Xalq Cümhuriyyəti dövrünün dövlət rəmzlərini bərpa etdi. Xalqın iradəsi ilə müstəqilliyini elan etmiş Azərbaycan Respublikası çox mürəkkəb şəraitdə fəaliyyət göstərməyə başladı. Ermənistanın Azərbaycana qarşı təcavüzünün genişlənməsi, hakimiyyət uğrunda daxili çəkişmələr, iqtisadiyyatın çökməsi ölkəni xeyli zəiflətdi.

Azərbaycanda dövlətçilik ənənələrinin bərpa olunub inkişaf etdirilməsi, müstəqilliyimizin möhkəmləndirilməsi, onun əbədi və dönməz xarakter alması, beynəlxalq nüfuzunun sürətlə artması, məhz Ulu Öndər Heydər Əliyevin fəaliyyəti sayəsində mümkün olub. Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin tarixində ən yeni eranın əsasını qoyan, dövlətçiliyi yenidən bərpa edən, onun ideoloji, iqtisadi və siyasi əsaslarını formalaşdıran böyük dövlət xadimidir. Ötən əsrin 90-cı illərində 5 min illlik yaşı olan Azərbaycan dövləti parçalanmış vəziyyətdə olduğu vaxt, xalqın güclü idarəetmə qabiliyyətinə malik liderə ehtiyacı vardı. Ulu Öndər xalqın tələbi ilə hakimiyyətə gələrək, pərakəndə halda olan dövləti inkişaf edən hüquq sisteminə çevirməyə müvəffəq oldu və ölkədə dövlətçilik ənənələrini formalaşdırdı. Bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev siyasətinin layiqli varisi olaraq, xalqın etimadına söykənən siyasi fəaliyyəti ilə ölkəni ən qabaqcıl dövlətlər sırasına yüksəltməkdə davam edir. Çıxışlarının birində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev demişdir: "Müstəqilliyi bərpa etdikdə, biz dövlətimizi qurmalı və siyasi sistemimizi transformasiya etməli idik. Bu səbəbdən, siyasi və iqtisadi islahatlar paralel şəkildə aparılırdı. Biz aydın başa düşdük ki, təbii sərvətlər ölkənin transformasiyası və Azərbaycanın davamlı inkişafının təmin olunması üçün kifayət etməyəcək. Bu səbəbdən, siyasi islahatlar, demokratik proses və azadlıqlarla bağlı məsələlər bizim diqqət mərkəzimizdə olmuşdur. Bu gün Azərbaycanda bütün fundamental azadlıqlar - siyasi azadlıq, media azadlığı, azad internet, din azadlığı təmin edilib. Bu isə inkişafın əsası və təməli deməkdir".

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməsi, ərazi bütövlüyümüzün təmin olunması dövlətçilik ənənələrinin bərpa edilərək inkişaf etdirilməsinin bariz nümunəsidir.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

*Tarix yazan oğullar*

# Etibar Vətənə etibarlı əsgər idi

Etibar Səday oğlu Məmmədov Vətənin etibarlı oğlu olmağı bacardı. Tanıyanlar onun haqqında dəyərli fikirlər səsləndirir, hər dəfə barəsində danışanda, o illərə qayıdırdılar. Qonşuları bildirdilər ki, yaxşı insan olub. Yaxşı xatırlanmaq nə qədər çətin olsa da, Etibar bunu bacardı. İndi nəinki Ağstafa, bütün Azərbaycan onunla fəxr edir.

Öyrənirik ki, Etibar Məmmədov 1994-cü ildə Ağstafa rayonunun Yaradullu kəndində anadan olmuşdu. 2001-ci ildə Yusif İsmayılov adına Yaradullu kənd orta məktəbində təhsil almışdı. Məktəbi bitirdikdən sonra 2012-2014-cü illərdə "N" hərbi hissəsində hərbi xidmətdə olub. Ailəsi bildirdi ki, komandirləri ondan razılıq edir, verilən tapşırıqların öhdəsindən layiqincə gəldiyini deyirdilər. Hərbi xidmətdən qayıtdıqdan bir il sonra valideynlərinə yenidən ordu sıralarına qayıdacağını deyir. Kursu bitirdikdən sonra müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi "N" hərbi hissəsində tuşlayıcı-operator vəzifəsində xidmətə başlayır. Xidmətini peşəkarlıqla yerinə yetirərək yoldaşlarına nümunə olmağı bacarır. "Mən də haqq savaşımız başlayanda döyüşənlər sırasında olub Vətənin harayına səs verəcəm", - deyərək daim biliklərini artırmağa çalışıb.

Anası Şahnaz Məmmədova oğlunun keçdiyi döyüş yolundan qısaca söz açdı: "Ağlıma gəlməzdi ki, hansı zamansa gələr və mən oğlum barəsində keçmiş xatirələrimi bölüşərəm. Həyatımız boyu müxtəlif çətin anlarla üzləşirik. Ancaq bir müddət sonra onlar ya unudulur, ya da həll olunur. Övlad itkisi valideynlərə qanayan yara kimidir. Lakin onun qürurla anılması mənə təsəllidir. Etibar öz istəyi ilə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu olmaq istəyirdi. Biz də valideynləri olaraq ona razılığımızı bildirdik. 2016-cı ildə Aprel döyüşləri başlayan vaxt o da torpaqlarımız uğrunda döyüşdü. Onun evə qayıtdığını görəndə fərəhdən qanadlandım. 2020-ci ildə Tovuz döyüşlərində də iştirak etdi. Oğlumun gözlərində alışıb-yanan qisas hissini duymamaq mümkün deyildi. Həmin ilin 27 sentyabrında başlayan Vətən müharibəsində də döyüşlərə qatıldı. Füzuli istiqamətində əməliyyat tapşırığını yerinə yetirərkən döyüş yoldaşlarıyla birgə içində olduğu tank vuruldu. Sonra özünü kənara ataraq qurtulmağı bacardı. Bu dəfə də əlinə silahını alıb yoldaşlarıyla irəliyə gedərək düşməni itkilərə məruz qoydu. Ağır döyüşlərdə sentyabrın 28-dən 29-na keçən gecə şəhid oldu. Etibarın səcdiyi yol, qazandığı ada görə, həmişə qürur duyacağam".



"Mən də Birinci Qarabağ döyüşlərində iştirak etmişdim. Oğlum da uşaqlıqdan müharibənin nə demək olduğunu yaxşı anlayırdı. Həmişə deyərdi ki, mən də müharibə iştirakçısı olub torpaqları əsarətdən xilas edəcəm. Bu amalla hərbi formanı geyinərək xidmətə yollandı. O, Füzuli uğrunda gedən döyüşlərdə iştirak etdi. Onun gücünə, iradəsinə bələd idim. Hamımız bilirdik ki, qorxu bilmədən döyüşəcək. Belə də oldu. Çətin döyüşlərdə ölümünü gözə alaraq daha da irəliyə getdi və şəhid oldu. Doğulduğu Yaradullu kəndində də torpağa tapşırıldı. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" və "Füzulinin azad olunmasına görə" medallarıyla təltif edildi. Oğlumun xatirəsini əbədiləşdirmək üçün kəndimizdə onun adına bulaq kompleksi açdıq", - deyə atası Səday Məmmədov vurğuladı.

Ramilə Əhmədova da qardaşını xatırladı: "Etibar fikirləri ilə təəccübləndirməyi bacarırdı. Qonşulardan hərbi xidmətə gedən olanda həyəcandan bir yerdə dura bilmirdi. Hər birimiz onun gözlərindəki istəyi duyurduq. Ancaq heç vaxt düşünə bilməzdik ki, bir gün o da hərbçi kimi forma geyinib Vətənin müdafiəsində dayanacaq. 2020-ci ilin Tovuz döyüşlərində digər şəhidlərlə yanaşı, general-mayor Polad Həşimovun da olması onu dərindən sarsıtmışdı. Hər dəfə deyirdi ki, vaxt gələcək, mən düşməndən qisas alacam. Uşaqlıqdan onu qorxubilməz kimi tanımışdıq. Böyüdükcə hərəkətləri və davranışıyla bunu bir daha sübut etməyi bacardı. Hərbçi kimi xidmətə gedəndən bir il sonra başlayan döyüşlərdə iştirak edib evə qayıtması bizi narahatlıqdan qurtarmışdı. Düşünürdük ki, Etibar yenə yanımıza qayıdacaq. Ancaq Vətən müharibəsində düşmənin mövqelərimizi durmadan atəşə tutması, uşaqları da, yaşlıları da qətlə yetirməsi qardaşımın da qüruruna toxunurdu. O, sonunu düşünmədən döyüş meydanında layiqincə savaşdı. Biz fəxr edirik ki, Vətən üçün qorxu bilməz döyüşçü böyütməyi bacarmışıq. Gələcəyi, azad Qarabağı düşündü. Qəhrəman bacısı olmaq mənə verilmiş ən gözəl təsəllidir".

**Hüsniyyə İDRİSOVA**
**"Azərbaycan Ordusu"**

# İşğalçılar qarşımızda dayana bilmirdilər

Cəlilabad rayonunun Babalı kəndində dünyaya göz açmışam. Kiçik yaşlarımdan elmə, biliyə böyük marağım olub. Dərslərimi həvəslə oxumuşam, kitablara ürəkdən bağlanmışam. Kitabları oxuduqca da həyatı dərk etmişəm. Orta təhsilimi başa vurandan sonra hərbçi olacağımı qət etdim. Bu, mənim uşaqlıq arzum idi. İllərdən bəri ürəyimdə özünə yer etmiş istəyimə çatmaq üçün 2015-ci ildə sənədlərimi Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) verdim. Hazırlığım yüksək olduğuna görə qəbul olunacağıma, arzuma çatacağıma əmin idim. İmtahanlara da əminlik hiss ilə getdim.

Ümidlərim özünü doğrultdu, arzuma çatdım. Həmin gün sevincimin həddi-hüdudu yox idi. Sevincimə qoşulmuş yaxınlarım da məni ürəkdən təbrik edir, uğurlar arzulayırdılar. Dörd il ərzində hərbi təhsil ocağında yerüstü artilleriya ixtisasına yiyələndim. 2019-cu ildə hərbi təhsilimi başa vurub gənc zabit kimi ordu sıralarında xidmətə başladım.

Xidmətimin yaddaqalan günlərini yaşayırdım. Ali hərbi təhsil ocağında əxz etdiyim bilik və vərdişləri ordu sıralarında ilk addımlarını atan gənc əsgərlərə öyrədirdim. Xidmətimə böyük diqqətlə yanaşırdım. Çalışırdım əsgərlərə artilleriya qurğularının sirlərini dərindən öyrədim. Çünki hər an Qarabağ uğrunda döyüşlər başlaya bilərdi. Taqımda xidmət edən əsgərlər hərbi bilik və döyüş vərdişlərini həvəslə mənimsəyirdilər.

İlıq bir payız günündə - 27 sentyabr 2020-ci ildə gözlənilən gün həyatımıza qədəm qoydu. Ermənі təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başladı. Elə ilk günlərdən bölüyümüzü döyüşlərə cəlb etdilər. Əvvəlcə bizi Ağdam rayonu istiqamətinə gətirdilər. Həmin günlərdə torpaqlarımızın azadlığı uğrunda gərgin döyüşlər gedirdi. Üç gün bu istiqamətdə vuruşduq. Sonra komandanlıq bizi Füzuli rayonuna yolladı.

Füzuli istiqamətində keçilməz sədlər quran işğalçılar ciddi müqavimət göstərir, geri çəkilmirdilər. Düşmənin məqsədi işğal günlərini uzatmaq, torpaqlarımızı əldə saxlamaq idi. Buna yol verə bilməzdik.



Qəsbkarların mövqelərini artilleriya atəşinə tutduq. Mərmilər hədəflərdən yayınmırdı. Bir neçə gün ərzində ermənilərin mövqelərini darmadağın etdik. Gərgin döyüşlərdən sonra Füzuli rayonunun mərkəzi işğalçılardan azad olundu.

Sonra döyüşə-döyüşə Cəbrayıl rayonu istiqamətinə irəlilədik. Burada da düşmənin atəş mövqelərini, dayaq məntəqələrini sıradan çıxartdıq. Torpaqlarımızı işğaldan azad edə-edə xeyli irəlilədik. Döyüş yolumuz Zəngilandan, Qubadlıdan, Laçından keçdi. İşğalçılar ölkəmizin ərazilərindən qovaraq irəli gedirdik. Ermənilər qarşımızda dayana bilməyib qaçırdılar.

Azərbaycan Ordusunun zabit və əsgərləri döyüşlərdə böyük hünər və qəhrəmanlıq göstərərək iyirmi səkkiz ildən çox erməni işğalında qalmış torpaqlarımızı azad etdilər. İşğala son qoyuldu. 44 gün ərzində düşmənə sarsıdıcı zərbələr vurduq. İşğalçılar üzərində qələbəmiz də bu zərbələrdən doğdu.

İkinci Qarabağ müharibəsində göstərdiyim hünər və cəsarətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "İgidliyə görə" medallarına layiq görülmüşəm.

Bu gün yenə də təlim-məşğələlər keçir, döyüş hazırlığımızı artırırıq. Həm mənəvi-psixoloji, həm də döyüş hazırlığımız yüksək səviyyədədir. Zabit və əsgərlərimiz hər an, hər dəqiqə döyüş tapşırıqlarını yerinə yetirməyə hazır və qadirdirlər.

**Baş leytenant**
**Afiyəddin FEYZİYEV**
**"N" hərbi hissəsi**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyə ordusu Suriyanın şimalında 11 terrorçunu zərərsizləşdirib



Türkiyə ordusu "PKK-YPG" terror təşkilatının Suriya qanadının 11 silahlısını zərərsizləşdirib.

Türkiyə Milli Müdafiə Nazirliyi bu barədə məlumat yayıb.

Məlumata əsasən, PKK-YPG terrorçuları Suriyanın şimalında "Fərat qalxanı" və "Zeytun budağı" antiterror əməliyyatları zonalarında zərərsizləşdirilib.

## Rusiyada hərbi hissədə partlayış nəticəsində ölənlərin sayı 7-yə çatıb



Rusiyanın Belqorod vilayətində hərbi hissədə partlayış nəticəsində ölənlərin sayı 7 nəfərə çatıb.

Hadisə yanvarın 14-də baş verib. Hərbi hissədə taqım komandirinin əl qumbarasını partlatması nəticəsində 3 hərbçi həlak olmuş, 15 nəfər xəsarət almış, 8 hərbçi itkin düşmüş sayılırdı.

Yanvarın 17-ə olan məlumata görə, partlayış və sonra baş verən yanğında ölənlərin sayı 7 nəfərə çatıb.

## Serbiya Prezidenti: Orduya əlavə 5 min nəfər cəlb olunacaq



Serbiya ordusuna əlavə 5 min nəfər cəlb olunacaq.

Bunu Serbiya Prezidenti Aleksandar Vuçiç deyib.

A.Vuçiç bu addımın xüsusi təyinatlı bölmələrin gücləndirilməsi məqsədilə atılacağını bildirib: "Xüsusi təyinatlı bölmələri gücləndirmək üçün işlər görürük. Bu çərçivədə 5 min nəfərin orduya cəlb olunması üçün elan veriləcək".

Qarşıdakı dövrdə Serbiyanın yerli pilotsuz uçuş aparatlarının istehsalına diqqəti artıracağını deyən A.Vuçiç müdafiə sənayesini gücləndirmək üçün işlərin görüldüyünü, əsgərlərin əmək haqlarının artırılacağını deyib.

O, Ukraynadakı müharibənin Serbiyaya mənfi təsir etdiyini bildirib: "Ödənişini etdiyimiz hərbi texnikaları idxal edə bilmirik. Eyni zamanda, ehtiyat hissələrini də ölkəyə gətirə bilmirik. Buna görə də ordumuzun güclü tərəflərinə diqqəti yönəldəcəyik".

## Böyük Britaniya Ukraynaya "Challenger 2" tankları göndərəcək



Böyük Britaniya yaxın həftələrdə Ukraynaya 14 "Challenger 2" tankını təhvil verəcək.

Böyük Britaniyanın Ukrayna ilə bağlı dərc olunan strategiyasında bu barədə qeyd olunub.

"Ukraynaya "Challenger 2" tanklarını göndərməklə, Britaniya Kiyevə müttəfiqlərdən silah tədarükünü artırmaq üçün dünyada diplomatik fəaliyyətini əhəmiyyətli dərəcədə artıracaq. Baş nazir Rişi Sunak Prezident Volodimir Zelenskiyə Böyük Britaniyanın Ukraynaya qarşı gedən müharibədə əlavə dəstək verəcəyini söylədikdən sonra yaxın həftələrdə 14 tankdan ibarət eskadron ölkəyə göndəriləcək", - məlumatda qeyd edilib.

**AZƏRTAC-ın materialları əsasında**

## *Asudə vaxt*

# Əsgərlərimizin bilikləri hərtərəfli inkişaf etdirilir

*Raket və Artilleriya Qoşunlarının "N" hərbi hissəsində şəxsi heyətin asudə vaxtı maraqlı və səmərəli keçirilirdi. Asudə vaxtda onlar intellektual səviyyələrini yüksəldir, ölkəmizin qədim tarixini, coğrafiyasını, xalqımızın mədəniyyətini, adət-ənənələrini öyrənirlər. Bunun nəticəsidir ki, Azərbaycan əsgəri Vətəninə, tarixi köklərimizə, zəngin mədəniyyətimizə və milli irsimizə bağlı vətəndaş kimi formalaşır.*



Kiçik leytenant Eşqin İbrahimovun nəzarəti altında ideoloji otaqda bədii və hərbi kitablar, jurnallar və qəzetlər oxuyan əsgərlərimiz biliklərini zənginləşdirirlər. "Müdafiə Nazirliyi rəhbərliyinin tapşırığına əsasən hərbi hissəmizdə əsgərlərimizin asudə vaxtlarının düzgün təşkil edilməsi üçün hərtərəfli şərait yaradılaraq onların istifadəsinə verilib. Bunlar əsgərlərin mənən kamilləşməsinə müsbət təsir edir. Asudə vaxtın səmərəli keçirilməsinin nəticəsidir ki, əsgərlərimiz peşəkar bir döyüşçü kimi formalaşırlar. Şanlı Qələbəmizlə nəticələnən Vətən müharibəsi də bunun təsdiqidir. İkinci Qarabağ müharibəsinin döyüşləri onu göstərdi ki, Azərbaycan Ordusunun əsgəri Vətən naminə son damla qanına qədər döyüşməyə hazır və qadirdir", - deyə zabit bildirdi.

Əsgər Qasım Nağıyev asudə vaxtlarının səmərəli keçirilməyinin əhəmiyyətindən və ordu sıralarında əldə etdiklərindən danışdı: "Asudə vaxtımızda əsgər yoldaşlarımızla müxtəlif kitablar oxuyur, stolüstü oyunlar oynayır və televiziya verilişlərinə baxırıq. Mülki həyatda keçirdiyimiz günlərdən və maraqlı hadisələrdən söhbət edirik. Bu isə bir-birimizlə daha da səmimi olmağımıza, dostluq və qardaşlığımızın güclənməsinə də təsir edir. Bunun nəticəsidir ki, mən də özümə yaxşı dostlar qazanmışam. Onlarla dostluğum, əlbəttə ki, mülki həyatda da davam edəcək. Əsgər dostu ömür dostudur".

Xidmətinin çox hissəsini geridə qoyan əsgər Zamin Əlizadə yaradılan şəraitdən söz açdı: "Müdafiə Nazirliyi rəhbərliyinin tapşırığına əsasən bizim üçün yaradılan şərait yüksək səviyyədədir. Müasir standartlara cavab verən isti yataqxana, yeməkxana, camaşırxana və inzibati otaqlar yüksək səviyyədədir. Yeməkxanalarda çalışan aşpazlar dadlı xörəklər bişirirlər. Komandirlərimiz də hər birimizə doğma münasibət göstərirlər. Onlar mütəmadi olaraq ailəmizlə əlaqə saxlamağa imkan yaradırlar. Xidmətimizi düzgün təşkil edirik, şəraitdən, göstərilən diqqət və qayğıdan hamımız razıyıq. Azərbaycan əsgəri adına layiq xidmət edirik".

Əsgərlər Rəhim Quliyev, Rəvan Məmmədov, Cavad Mustafazadə və başqaları sosial-məişət şəraitlərindən, komandirlərin onlara göstərdikləri doğma və isti münasibətdən, xidmətdə keçirdikləri xoş və yaddaqalan günlərindən danışdılar.

Əmin olduq ki, hərbi hissələrdə şəxsi heyət asudə vaxtlarından səmərəli istifadə edərək hərbi sirlərə dərindən yiyələnirlər. Onlar Ali Baş Komandanın döyüş əmrini Zəfərlə başa çatdıranların davamçılarıdırlar...

**Kapitan**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

## *Əsgərin tribunası*

# Döyüş əmrini yerinə yetirməyə hazırıq!

İkinci Qarabağ müharibəsi başlayanda orta məktəbdə oxuyurdum. Televiziyada gördüklərimiz biz şagirdləri də döyüşlərə səsləyirdi. Sinif yoldaşlarımızla qərara aldıq ki, döyüşə gedək. Müraciət etdik, yaşım az olduğu üçün aparmadılar. Müharibədə iştirak edə bilməsək də, döyüşlərdən uzaq olmadıq. O günlərdə yeganə təsəllim böyük şairimiz Səməd Vurğunun "Gözüm gözünüzdən uzaq olsa da, Könüldən-könülə yollar görünür" misralarıdı. Yəni, biz ruhən döyüşənlərin sırasındaydıq.

İkinci Qarabağ müharibəsi Azərbaycan Ordusunun tarixi Zəfəri ilə tamamlandı. Biz hərbi xidmətə qalib əsgərlərin davamçıları kimi gəldik.

Hərbi Nizamnamələri öyrəndik. Hərbi Anda, dövlətə, dövlətçiliyə sədaqətlə xidmətə başladıq. İkinci Qarabağ müharibəsində, "Qisas" əməliyyatında iştirak etmiş zabitlərin, gizirlərin, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuların döyüş təəssüratlarını da maraqla dinləyirdik. Eşitdiyimiz sözləri müharibənin tarixi bilirdik. O söhbətlərin döyüş hazır-



lığımızda da əhəmiyyətli olurdu, mənəvi-psixoloji hazırlığımızda da.

Hərbi xidmətdə ictimai-siyasi düşüncələrimiz də formalaşır. Yanvarın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib. Komandirimiz bizə bu müsahibənin mahiyyəti haqqında ətraflı məlumat verdi, dövlət başçısının suallara cavablarının bəzi məqamlarını da xatırlatdı. Prezidentimizin "Azərbaycan o ölkələrdəndir ki, öz sözünü açıq deyir, müstəqil siyasət aparır. Əlbəttə ki, bunun təməlində həm hərbi gücümüz, həm də şanlı Qələbəmiz dayanır. Çünki mən bunun canlı şahidiyəm ki, müharibədən sonra onsuz da Azərbaycan siyasətinə olan müsbət münasibət daha da artdı, yəni, bizə olan rəğbət daha da artdı". Biz də bütün azərbaycanlılar kimi bu fikirlərlə elə qürurlandıq ki! Bu qüruru Zəfərin davamı bilirik.

Vətən müharibəsində şəhid olanların bəziləri biz yaşda idilər. Yəni, biz həmyaşıdlarımızın yarımçıq qalmış ömür yolunu xidmətimizlə davam etdiririk. Hər təlimdə elə bilirik ki, onlar da sıramızdadırlar. O gün əsgər yoldaşlarımızdan biri təsnif zümzümələyirdi. Diqqət yetirdik, şəhid döyüşçü Xudayar Yusifzadənin şəhidliyindən bir neçə gün əvvəl oxuduğu təsnif idi. Onda bir daha əmin olduq ki, Xudayar bugünkü əsgərlərin hamısının hərbi xidmət yoldaşıdı...

Hərbi bilikləri mənimsəmişik. Bizə həvalə edilən atıcı silahların taktiki-texniki xüsusiyyətlərini mükəmməl öyrənmişik. Bu və ya digər təlimlərdə, dərslərdə döyüş hazırlığımızı daha da təkmilləşdiririk. Biz də Ali Baş Komandanın döyüş əmrini yerinə yetirməyə hazırıq!

Ağstafa rayonundanam. Tərxis edildikdən sonra rayonumuza qayıdacam. Əzizlərimə də, dostlarıma da hərbi xidmətdən, təlimlərdən, əsgər yoldaşlarımın cəsarətindən danışacam. Onu da deyim ki, ordu sıralarından tərxis olunsaq da, yenə Vətənin əsgəriyik.

**Əsgər**
**Cəlal ZEYNALOV**
**"N" hərbi hissəsi**

# İdman

## Ulu Öndərin 100 illiyinə həsr olunmuş minifutbol turniri davam edir



Gənclər və İdman Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası və Azərbaycan Minifutbol Federasiyasının təşkilatçılığı ilə keçirilən Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş minifutbol turniri davam edir.

Yarışların növbəti turunda İqtisadiyyat Nazirliyinin komandası Mərkəzi Seçki Komissiyasının təmsilçiləri ilə qarşılaşıb. Gərgin idman mübarizəsi şəraitində keçən oyunda İqtisadiyyat Nazirliyinin komandası 7:3 hesabı ilə rəqibinə qalib gəlib.

Qeyd edək ki, bundan əvvəlki turda nazirliyin komandası Dövlət İmtahan Mərkəzinin komandasını məğlub edib - 3:0.

İqtisadiyyat Nazirliyinin komandasının yanvarın 21-də növbəti rəqibi İpoteka və Kredit Zəmanət Fondu olacaq.

## Bakıda keçiriləcək "Arpachay Open"də 10-dək ölkədən 1500-dən artıq karateçi iştirak edəcək




Bakıda 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş "Arpachay Open" beynəlxalq karate turniri keçiriləcək.

Turnir yanvarın 20-22-də Gənclər və İdman Nazirliyinin dəstəyi, "Arpaçay" karate klubu və Azərbaycan Milli Karate Federasiyasının (AMKF) birgə təşkilatçılığı ilə baş tutacaq.

Turnirdə 10-dək ölkədən, habelə paytaxt Bakıdan və Azərbaycanın əksər regionlarından 1500-dən artıq idmançı iştirak edəcək.

## Stolüstü tennisçimiz beş qitənin ən istedadlıları sırasında yer alıb



Stolüstü tennisçimiz Onur Quluzadə Beynəlxalq Stolüstü Tennis Federasiyasının təlim-məşq toplanışına qatılacaq.

İstedadlı idmançımızı seçmə komandanın baş məşqçisi Mixail Timofeyev müşayiət edəcək. Fransanın Hennebont şəhərində təşkil olunacaq "World Hopes Week & Challenge" toplanışına beş qitədən 40 oğlan və qız idmançı dəvət alıb. İstedadları ilə seçilən bu stolüstü tennisçilər yanvarın 16-dan 22-dək keçiriləcək toplanış çərçivəsində təlimlərdə və miniturnirlərdə iştirak edəcəklər.

Xatırladaq ki, Onur Quluzadə artıq bir neçə ildir müntəzəm olaraq Avropa Stolüstü Tennis Birliyinin oxşar təlimlərinə qatılır.

## Azərbaycanlı hakim İstanbulda Çempionlar Liqasının oyununu idarə edəcək



Avropa Voleybol Konfederasiyası (CEV) azərbaycanlı hakimə təyinat göndərib.

Beynəlxalq dərəcəli hakim Eldar Zülfüqarov yanvarın 18-də Türkiyənin İstanbul şəhərində keçiriləcək qadın voleybolçular arasında Çempionlar Liqasının D qrupunun matçını idarə edəcək.

E.Zülfüqarov "Burhan Felek" voleybol salonunda baş tutacaq "Fənərbağça Opet" (Türkiyə) - "Allianz MTV Ştutqart" (Almaniya) klublarının qarşılaşmasında baş hakim olacaq. Oyunda ikinci hakim funksiyasını rumıniyalı Pol Katalin Şabo-Aleksi yerinə yetirəcək.

**AZƏRTAC-ın materialları əsasında**

Tibb xidməti leytenantı Əsədov Rəşad Elxan oğluna məxsus MN № 0038555 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Vahid MƏHƏRRƏMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 27
Nüsxə 4661